# İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İQTİSADİ FƏALİYYƏTİN TƏŞKİLİNİN İSTİQAMƏTLƏRİ VƏ NÖVLƏRİ

**Söhrab İSAYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent*
*isayevsohrab@gmail.com*

**Murad MİRZƏYEV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*murad.mirzeyev.2015@bk.ru*

**Xülasə.** Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri, ərazilərin iqtisadi potensialı, maddi resursları və onlardan səmərəli istifadə edilməsi, regiona investisiya cəlb edilməsi, sahibkarlığın inkişaf istiqamətləri və s. məsələlər mühüm aktuallıq kəsb edir.

Birmənalıdır ki, işğaldan azad edilmiş ərazilərin Azərbaycan xalqı üçün tarixi-mədəni dəyəri hər hansı iqtisadi faydası ilə müqayisədə qat-qat üstün əhəmiyyətə malikdir. Bununla yanaşı, azad Qarabağ ərazilərinin tarixən və bu gün də olduqca zəngin iqtisadi resurs və potensiala malik olması bir həqiqətdir. Bu ərazilərin bütünlükdə ölkə iqtisadiyyatına inteqrasiyası əsasında yaradılacaq yeni iqtisadi dəyərin Azərbaycan dövlətinin bərpa və quruculuğa sərf etdiyi maliyyə xərclərini dəfələrlə üstələyəcəyi şübhəsizdir.

İşğaldan azad edilmiş ərazilər sənaye və tikinti əhəmiyyətli müxtəlif növ materiallarla zəngindir. Eyni zamanda, bu ərazilər zəngin su ehtiyatlarına malikdir ki, bu da ölkəmizin sənayesi və kənd təsərrüfatı üçün müstəsna əhəmiyyət kəsb edir.

Əminliklə qeyd etmək mümkündür ki, işğaldan azad edilən ərazilərdə yaradılacaq əlverişli biznes mühiti, mikro, kiçik və orta sahibkarlığın formalaşması strateji sahə kimi qeyri-neft sektorunun dinamik inkişafına əsaslı təkan verəcək, nəticədə idxalı əvəz edən məhsulların yerli istehsal hesabına həcmi və çeşidi çoxalmaqla yanaşı, ixrac yönümlü məhsulların istehsalı da artacaqdır. Bu əminliyin maddi-iqtisadi bazasını işğaldan azad edilən ərazilərin təbii ehtiyatları, sosial-iqtisadi bazasını isə öz doğma yurdlarına qayıdan insanlar təşkil edəcəkdir.

**Açar sözlər:** Qarabağ, işğaldan azad edilmiş ərazilər, iqtisadi fəaliyyət istiqamətləri, iqtisadi potensial, sahibkarlıq, infrastruktur, resurslar, bərpa və quruculuq, kənd təsərrüfatı

## Giriş

İşğaldan azad edilmiş ərazilərdə böyük müalicəvi əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Bütövlükdə Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının təxminən 40%-i işğaldan azad edilmiş rayonların payına düşür. Regionun enerji resurslari (hidroenerji, günəş, külək və termal enerji potensialı) iqtisadiyyatın bütün sahələrinin, eləcə də əhalinin enerjiyə olan gündəlik tələbatının ödənilməsində vacib təminatçı rolunda çıxış edəcəkdir.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqlamalarına əsasən, işğaldan azad edilmiş ərazilərdə 167 müxtəlif təyinatlı faydalı qazıntı yatağı mövcuddur. Onlardan 5-i sement və soda üçün xammal, 42-si üzlük, mişar və müxtəlif növ tikinti daşları, 19-u gips və gil, 14-ü əlvan və bəzək daşları, 14-ü qum-çınqıl və tikinti qumu, 21-i pemza və vulkan külü yataqlarıdır. İlkin hesablamalara əsasən, həmin yataqlarda ehtiyatları təsdiq olunmuş 132,6 ton qızıl, 37,3 min ton qurğuşun, 129,8 milyon kubmetr soda istehsalı üçün əhəngdaşı, 147,1 milyon ton sement xammalı, 2,1 milyon kubmetr pemza və s. mövcuddur ki, bütün bunlar ölkə iqtisadiyyatının inkişafında vacib rol oynayan xammallardır.

Bu faktlar onu göstərir ki, həmin ərazilərdə sahibkarlığın müxtəlif mülkiyyət formalarının geniş şəbəkəsinin yaradılması üçün kifayət qədər xammal və enerji resursları mövcuddur. İndiki və gələcək nəsillərin qarşısında duran başlıca vəzifə həmin resurslardan qənaətlə istifadə etməklə Qarabağın dayanıqlı sosial-iqtisadi inkişafını təmin etməkdir.

## Metod

Tədqiqat işinin təhlili zamanı sistemli yanaşma və analiz, həmçinin deduksiya və induksiya metodlarından istifadə edilmişdir. Belə ki, induksiya metodu vasitəsilə tədqiqat işi ilə bağlı iqtisadi dəlillər toplanılmış, araşdırılmış və sistemləşdirilmişdir. Sintez metodu daha detallı bir araşdırma məqsədi ilə fərdi elementləri bütöv hala gətirmək üçün istifadə edilmişdir. Bundan başqa, məqalənin hər bir mərhələsində məntiqi analiz, iqtisadi-statistik metod, müqayisə və təsnifat metodları, həmçinin ekspert dəyərləndirmə metodlarından istifadə edilmişdir.

## Əsas hissə

Ölkə Prezidentinin 29 oktyabr 2020-ci il tarixli “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” fərmanında [1] işğaldan azad edilmiş rayonlarda müvəqqəti komendantlıqların yaradılması və onların nəzdində fəaliyyəti zəruri hesab edilən dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin təmsil edilməsi, vaxt itirmədən ərazilərin qorunması və bərpası, insanlar və ətraf mühit üçün yüksək təhlükə mənbəyi olan obyektlərin mühafızəsi, ictimai təhlükəsizliyin qorunması və başqa vacib məsələlər öz əksini tapmışdır.

Bundan başqa, Prezident 06 noyabr 2020-ci il tarixində həmin ilin sentyabr ayının 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, həmçinin sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın dəyərləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaratmışdır. Bu komissiyaya tapşırılmışdır ki, dəymiş ziyanı dəyərləndirərək onların aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpa edilməsi və təmir-tikinti işlərinin reallaşdırılması üçün tələb edilən maliyyə və-

saitləri barədə təkliflərini ölkə prezidentinə təqdim etsin və xərclərə aid vahid məlumat bazasının yaradılması təmin olunsun [13].

İşğaldan azad edilmiş rayonlarda sahibkarlığın təşkili, idarə edilməsi və inkişafı üçün müasir dövrün tələblərinə cavab verən, qabaqcıl beynəlxalq təcrübəni özündə əks etdirən, sistemli yanaşmaya əsaslanan kompleks xarakterli hüquqi, təşkilati-iqtisadi, texniki-texnoloji, sosial, ekoloji və s. tədbirlərin işlənilməsi və reallaşdırılması tələb edilir. Başqa sözlə, ərazilərin bərpa edilməsi üçün konseptual yanaşmaya üstünlük verilməlidir.

Həyata keçiriləcək hər bir tədbirin hüquqi bazasının zəruriliyini nəzərə alsaq, onda "İşğaldan azad edilmiş ərazilər haqqında" Azərbaycan Respublikası Qanununun, bu ərazilərin tam bərpa edilməsi və sosial-iqtisadi inkişafı üçün məqsədli dövlət proqramının, eləcə də Strateji Yol Xəritəsinin hazırlanması və qəbul edilməsi vacibdir.

Başqa təxirəsalınmaz tədbirlərdən biri azad edilən ərazilərə mərhələlərlə qaytarılacaq əhalinin sayı və demoqrafık tərkibinin müəyyən edilməsidir. Bu prosesin icrası qaçılmazdır. Ən azı ona görə ki, işğaldan azad edilən rayonlarda bütün yaşayış məntəqələri və infrastruktur məhv edilmişdir. Onların bərpasına isə zaman lazımdır.

Əhalinin təhlükəsizliyini təmin etmək üçün ilk növbədə sərhəd təhlükəsizliyi sistemi yaradılmalı, ərazilər minalardan tam təmizlənməli, zədələnən torpaqlar istifadə üçün yararlı vəziyyətə gətirilməli, Ermənistanın Azərbaycana vurduğu maddi və mənəvi ziyan beynəlxalq ekspertlərin iştirakı ilə hesablanmalı, onun ödənilməsi üzrə beynəlxalq hüquq təşkilatları qarşısında iddia qaldırılmalıdır.

İşğaldan azad edilən ərazilərdə tikinti-quraşdırma və abadlaşdırma işlərini fasiləsiz həyata keçirmək üçün yerli daş karxanaları, qum çınqılı, əhəng, sement və s. istehsal edən müəssisələrin işini bərpa etmək məqsədilə rayonları təmsil edən mövcud 35-ə yaxın tikinti təşkilatı ərazilərə köçürülməli, onların işçiləri üçün konteyner tipli vaqonlar və modul evlər quraşdırılmalıdır. Həmçinin dövlət, özəl və xarici şirkətlər cəlb edilməklə ərazidə respublika və yerli əhəmiyyətli avtomobil, eləcə də Horadiz-Naxçıvan və Bərdə-Xankəndi dəmiryolları bərpa olunmalıdır. Həmin şirkətlərin vasitəsilə rayonlarda ilk növbədə mobil rabitə sistemi, onun ardınca isə poçt-rabitə şəbəkələri bərpa edilməli, eyni zamanda, asfalt-beton mobil zavodların tikintisi, ərazilərin elektrik enerjisi vasitəsilə təminatı, su və qaz təchizatının bərpa edilməsi işləri həyata keçirilməlidir [13].

Yeni yaradılacaq tikinti təyinatlı sahibkarlıq subyektlərinin, fərdi qaydada yaradılacaq mikro və kiçik müəssisələrin regionda mövcud olan və dağıntıya məruz qalan çoxsaylı yaşayış məntəqələrinin, o cümlədən 4 şəhər və 46 qəsəbənin yenidən bərpa edilməsi işində fəal iştirakı şübhə doğurmur. Onların payına böyük sayda xəstəxana və poliklinikaların, məktəb və uşaq bağçalarının, kütləvi kitabxanaların bərpa edilməsi də düşür. Heç şübhə etmirik ki, işğaldan azad olan şəhər və kəndlərdə mikro, kiçik və orta sahibkarlar tərəfindən müasir mağazalar, məişət və iaşə xidmətləri, bazar və başqa sosial infrastruktur obyektləri tikilib istifadəyə təqdim ediləcəkdir. Güman edirik ki, həmin sahibkarlıq subyektlərinin təşkili prosesinə güzəştli vergi və kredit (aşağı faizli) sistemləri şamil ediləcəkdir.

Fikrimizcə, işğaldan azad edilən münbit torpaq sahələrindən təyinatı üzrə səmərəli istifadə etmək üçün qəsəbə və kənd evlərinin bərpa edilməsi və yaxud yenidən salınması prosesində sistemli yerləşməyə üstünlük verilməsi məqsədəuyğundur. Bu zaman rayonlarda məskunlaşan əhaliyə ərazinin relyefı nəzərə alınmaqla əvvəllər itirdikləri əmlakın öz gücü ilə bərpası-

nın hər kvadrat metri üçün müasir istilik sistemi təchiz edilməklə 600-1000 manat məbləğində müavinətlərin dövlət tərəfindən ayrılması təmin edilməli, eləcə də ərazilər minalardan təmizləndikdən, dağıntılar aradan qaldırıldıqdan sonra torpaq islahatları məsələsinə də aydınlıq gətirilməlidir. Qarabağın şəhər və qəsəbələrində çoxmərtəbəli binaların tikintisinə, bu zaman geniş və abad küçələrin salınmasına da üstünlük verilə bilər.

Hesab edirik ki, işğaldan azad edilən rayonlarda müasir texnika və texnologiya vasitəsilə təchiz edilən, İKT-dən, yerli xammal, enerji və başqa resurslardan səmərəli istifadə etməyə imkan verən aşağıdakı fəaliyyət sahələri üzrə fərdi, mikro, kiçik və orta ölçülü sahibkarlıq subyektlərinin yaradılması regionun dinamik sosial-iqtisadi inkişafına, fəal məşğulluğun, eləcə də özünüməşğulluğun yüksək səviyyədə təmin edilməsinə imkan yaradacaqdır [13].

• rayonlarda onların spesifık xüsusiyyətlərinə müvafiq aqroparkların və müştərək müəssisələrin (kənd təsərrüfatı məhsullarının, iri və xırdabuynuzlu heyvan dərilərinin toplanılması və emalı, dərman bitkilərinin tədarükü və emalı, yem tədarükü, süd və süd məhsulları istehsalı, arıçılıq, quru meyvə, meyvə şirələri və kompot hazırlayan müəssisələr və s.) geniş şəbəkəsinin təşkili zəruridir;

• Qarabağda çoxsaylı faydalı qazıntı yataqlarının mövcudluğu Kəlbəcər və Zəngilan rayonlarında müştərək dağ-mədən və əlvan metal istehsal edən müəssisələrin yaradılmasına imkan verə bilər;

• regionda 46 qəsəbənin mövcudluğu, eləcə də şəhərlərin real sənaye potensialı orada 28 sənaye və xidmət məhəlləsinin yaradılması imkanlarını gerçəkləşdirə bilər;

• Şuşada AMEA-nın Şuşa Regional Elmi Mərkəzinin, AMEA Yüksək Texnologiyalar Parkının filialının mövcud sənaye müəssisələrinin, elm və təhsil ocaqlarının iştirakı ilə müasir texnoparkın yaradılması şəhərin iqtisadi potensialından səmərəli istifadə olunmasına imkan verə bilər;

• Ağdam, Cəbrayıl və Qubadlı rayonlarında “Azərxalça” ASC-nin filiallarının yaradılması, əlverişli şəraiti olan digər rayonlarda baramaçılığın inkişafı mikro və kiçik sahibkarlığın dinamik inkişafına təkan verə bilər;

• Kəlbəcər, Laçın və Şuşada böyük həcmdə mineral su ehtiyatının olduğunu nəzərə alaraq, orada suların geniş çeşidinin qablaşdırılması və istehlakı üzrə müvafiq sahibkarlıq subyektinin yaradılması da yüksək iqtisadi səmərə verə bilər;

• Füzuli və Cəbrayıl rayonlarının ərazisində azad ticarət zonalarının yaradılması regionun ixrac imkanlarını genişləndirə bilər;

• Şuşa, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında tarixi abidələrin mövcudluğu orada turizmin inkişafına zəmin yarada bilər;

• Qarabağın hər bir inzibati rayonu çərçivəsində tərtib ediləcək özünüməşğulluq proqramı üzrə kənd təsərrüfatının müxtəlif sahələrində fərdi və mikrosahibkarlıq fəaliyyətinin təşkili məqsədəuyğundur;

• fərdi, mikro və kiçik statuslu sahibkarlar tərəfindən dünyada məşhur olan Qarabağ atlarının sayının çoxaldılması arzu olunandır;

• iri və xırdabuynuzlu heyvan dərilərinin aşınması və onlardan geyim əşyalarının və başqa xalq istehlakı mallarının istehsalının təşkili yerli əhalinin maddi rifah halının yaxşılaşmasına da imkan verə bilər;

• rayonların dağlıq kənd və qəsəbələrində fərdi, mikro və kiçik sahibkarlıq fəaliyyəti göstərən obyektlərində, eləcə də fərdi yaşayış evlərində qardaş Türkiyənin mövcud uğurlu iş təcrübəsindən istifadə etməklə alternativ və bərpa edilən enerji növlə-

rindən istifadəyə üstünlük verilməsi faydalı olar.

İşğaldan azad edilmiş ərazilərin reinteqrasiyasını nəzərə alsaq, digər iqtisadi rayonların da (Aran və Gəncə-Qazax) planlaşdırılmasının iqtisadi səmərəliliyini artırmaq üçün bu bölgələrə yenidən baxış keçirilməsi məqsədəuyğundur.

Bununla bağlı işğaldan azad edilmiş ərazilərdə hal-hazırda da müəyyən işlər aparılır ki, əsas məqsəd mövcud təbii sərvətlərin, iqtisadi potensialın, həmçinin, turizm imkanlarının səmərəli istifadə edilməsi üçün gələcəyə dair vahid proqramın yaradılmasıdır.

**Cədvəl 1. Qarabağ iqtisadi rayonu üzrə işğaldan azad edilmiş ərazilərdə 2021-ci ilin yanvar-sentyabr ayları üçün iqtisadi fəaliyyətin əsas sahələri üzrə məhsul buraxılışının fiziki həcm indeksi, əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə [4]**

| | Sahələr üzrə cəmi | Sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | Tikinti | Nəqliyyat və anbar təsərrüfatı | İnformasiya və rabitə | Ticarət; nəqliyyat vasitələrinin təmiri |
|---|---|---|---|---|---|---|
| **Qarabağ iqtisadi rayonu - cəmi** | 143,4 | 104,8 | 105,6 | 4,0 d. | 87,2 | 118,1 |
| **o cümlədən:** | | | | | | |
| **Xankəndi şəhəri** | 92,2 | 106,7 | 100,3 | 43,1 | 94,9 | 125,9 |
| **Ağcabədi rayonu** | 136,5 | 107,1 | 103,7 | 4,8 d. | 74,5 | 135,1 |
| **Ağdam rayonu** | 111,3 | 97,2 | 112,9 | 190,5 | 87,6 | 109,8 |
| **Bərdə rayonu** | 3,0 d. | 101,1 | 102,4 | 11,8 d. | 75,3 | 130,1 |
| **Füzuli rayonu** | 3,8 d. | 99,2 | 88,1 | 4,6 d. | - | - |
| **Xocalı rayonu** | 92,5 | 141,7 | 91,1 | - | 72,2 | - |
| **Xocavənd rayonu** | 9,5 d. | 12,1 d. | 106,5 | 17,5 d. | 77,5 | - |
| **Şuşa rayonu** | 101,3 | 109,5 | 109,8 | 83,0 | 91,0 | 108,3 |
| **Tərtər rayonu** | 143,4 | 104,8 | 105,6 | 4,0 d. | 87,2 | 118,1 |

Dövlət Statistika Komitəsinin rəsmi məlumatlarına əsasən, işğaldan sonrakı dövrdə Qarabağ iqtisadi regionuna daxil olan rayonlar üzrə cədvəl 1-də əks olunan göstəricələrə nəzər yetirsək "ticarət, nəqliyyat vasitələrinin təmiri" sahəsi üzrə iqtisadi fəaliyyət daha çox yer alır. Buna səbəb isə ölkə vətəndaşlarının bu ərazilərə yenidən cəlb edilməsini göstərə bilərik. "Tikinti" və "sənaye, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq" sıranı davam etdirir. Hansı ki, biz burada dağıdılmış ərazilərin bərpa edilməsi faktorunu və potensial sahələrin canlandırılması işlərini vurğulaya bilərik. Cədvəl 2-də isə qeyri-neft sektoru sahələrinin işğaldan sonrakı ərazilər üzrə cari dövrdə baş verən dəyişiklikləri faiz nisbəti ilə göstərilir.

**Cədvəl 2. 2020-ci ildə Qarabağ iqtisadi rayonu üzrə əsas sosial-iqtisadi göstəricilər (dəyər ifadəsində olan məlumatlar faktiki qiymətlərlə verilmişdir) [4]**

| | Əhalinin nominal gəlirləri, min manat | Əsas sahələr üzrə məhsulun ümumi buraxılışı, milyon manat | Sənaye məhsulu, min manat | Kənd təsərrüfatı məhsulu, min manat | o cümlədən: | | Pərakəndə ticarət dövriyyəsi, min manat | Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bitkiçilik | Heyvandarlıq | | |
| **Qarabağ iqtisadi rayonu** | 1343153,5 | 1543,6 | 114680,1 | 849469,8 | 398752,1 | 450717,7 | 960391,4 | 259565,6 |
| **Xankəndi şəhəri** | … | … | … | … | … | … | … | … |
| **Ağcabədi rayonu** | 347673,8 | 466,5 | 52356,5 | 249602,4 | 102249,6 | 147352,8 | 253148,4 | 90892,3 |
| **Ağdam rayonu** | 59316,2 | 177,3 | 13104,8 | 132260,2 | 79461,3 | 52798,9 | 45930,8 | 14226,5 |
| **Bərdə rayonu** | 626524,8 | 474,2 | 23946,0 | 282117,2 | 106798,6 | 175318,6 | 431799,0 | 22705,7 |
| **Füzuli rayonu** | 80060,0 | 191,0 | 18224,9 | 87872,3 | 52411,2 | 35461,1 | 57814,6 | 74387,6 |
| **Xocalı rayonu** | … | 28,6 | … | 5484,5 | 3397,8 | 2086,7 | … | … |
| **Xocavənd rayonu** | … | 14,3 | 647,7 | 13145,8 | 7825,8 | 5320,0 | … | … |
| **Şuşa rayonu** | … | 18,6 | 15,1 | 5391,9 | 2208,2 | 3183,7 | … | 12500,0 |
| **Tərtər rayonu** | 229578,7 | 173,0 | 6385,1 | 73595,5 | 44399,6 | 29195,9 | 171698,6 | 44853,5 |

**Cədvəl 3. 2020-ci ildə Şərqi Zəngəzur iqtisadi rayonu üzrə əsas sosial-iqtisadi göstəricilər (dəyər ifadəsində olan məlumatlar faktiki qiymətlərlə verilmişdir) [4]**

| | Əhalinin nominal gəlirləri, min manat | Əsas sahələr üzrə məhsulun ümumi buraxılışı, milyon manat | Sənaye məhsulu, min manat | Kənd təsərrüfatı məhsulu, min manat | o cümlədən: | | Pərakəndə ticarət dövriyyəsi, min manat | Əsas kapitala yönəldilmiş vəsaitlər, min manat |
|---|---|---|---|---|---|---|---|---|
| | | | | | Bitkiçilik | Heyvandarlıq | | |
| **Şərqi Zəngəzur iqtisadi rayonu** | … | 133,4 | 2543,0 | 84353,6 | 6482,3 | 77871,3 | … | 21468,0 |
| **Cəbrayıl rayonu** | … | 30,0 | 2050,3 | 21811,7 | 4720,3 | 17091,4 | … | … |
| **Kəlbəcər rayonu** | … | 49,1 | 224,4 | 39209,8 | 580,9 | 38628,9 | … | … |
| **Qubadlı rayonu** | … | 12,1 | … | 1334,2 | 30,3 | 1303,9 | … | 1972,3 |
| **Laçın rayonu** | … | 41,1 | 268,3 | 21070,4 | 1035,2 | 20035,2 | … | 19495,7 |
| **Zəngilan rayonu** | … | 1,2 | … | 927,5 | 115,6 | 811,9 | … | … |

Cədvəl 3 üzrə Şərqi Zəngəzur iqtisadi rayonunda iqtisadi fəaliyyət üzrə göstəricilərə verilən faktiki nominal dəyər Qarabağ iqtisadi rayonuna nisbətdə daha yaxşıdır. Belə ki, sənaye məhsulu istehsalı, kənd təsərrüfatı, bitkiçilik və heyvandarlıq, əsas kapitala yönəldilmiş vəsaitlər üzrə liderliyi Şərqi Zəngəzur iqtisadi rayonu tutur.

Cədvəl 3 üzrə işğaldan azad edilmiş rayonların iqtisadi fəaliyyət növləri üzrə göstərici faktiki dəyər ilə təqdim edilmişdir. Təqdim edilən cədvəldə bu dəyərlərin aşağı olması əks olunur, səbəb isə işğalın yenicə başa çatması və mövcud rayonlar üzrə məskunlaşmanın azlığından irəli gəlir. Bu gedişatda dövlətin dəstəyi mühüm əhəmiyyət kəsb edir.

Fikrimizcə, Qarabağda əhalinin məskunlaşması tam başa çatdıqdan sonra:

- özəyi yeni yaradılacaq Milli Konservatoriyanın filialı olmaqla Şuşa şəhərində bütün təyinatlı musiqi məktəbləri, yeni tikiləcək Muğam Evi, musiqi alətləri istehsalı ilə məşğul olan sahibkarlıq subyektləri, xalq çalğı alətləri orkestri və ansamblları və s. musiqi klasterinin yaradılması;
- rayonlarda bütün musiqi məktəblərinin fəaliyyətinin bərpa olunması;
- əlverişli mövqelərdə olan şəhərlərdə “ASAN” xidmət və “DOST” mərkəzlərinin yaradılması;
- rayonların sosial-iqtisadi inkişafının tələblərinə uyğun ixtisaslı kadrların hazırlanması üçün əlverişli nəqliyyat-kommunikasiya şəbəkəsi olan mərkəzi şəhərlərin birində Qarabağ Dövlət Universitetinin, eləcə də ölkədə mövcud olan dövlət, özəl ali və orta ixtisas məktəblərinin filiallarının, peşə təhsili məktəblərinin yaradılması imkanları da

gerçəkləşəcəkdir.

İşğaldan azad edilən ərazilərdə sahibkarlıq fəaliyyətinin maliyyə təminatı qismində dövlət büdcəsindən və Dövlət Neft Fondundan birbaşa ayrılan vəsaitlər, xarici investisiyalar, beynəlxalq təşkilatların birdəfəlik təmənnasız ianələri, aşağı faizli bank kreditləri, sığorta təşkilatlarının vəsaitləri, əhalinin öz pul vəsaitləri və qanunvericilikdə qadağan edilməyən başqa mənbələr çıxış edə bilər.

**Regionun təbii landşaftı və turizm potensialı:** İşğaldan azad edilmiş regionda müxtəlif təbiət abidələri, nadir bitki və heyvan növləri yayılmışdır. Kiçik Qafqazın dağlıq zonası Azərbaycanın iri meşə rayonudur. Regionun ümumi meşə sahəsi təxminən 246.7 min hektardır, o cümlədən 13197 hektar qiymətli meşə sahələridir. Ölkəmizdə xüsusi mühafizə edilən təbiət ərazilərinin sahəsi hazırda 890 min hektara çatdırılmışdır [7].

Təbii landşaftı, nadir bitki və heyvanlar aləmini mühafızə etmək məqsədilə erməni işğalından əvvəl Kiçik Qafqazın həmin ərazilərində bir sıra qoruq və yasaqlıqlar təşkil edilmişdir. Buna misal kimi Bəsitçay qoruğunu, Laçın yasaqlığını göstərmək olar. Bəsitçay qoruğu Azərbaycanın cənub-qərbində işğaldan azad olunmuş Zəngilan rayonunun ərazisində Bəsitçay dərəsində 1974-cü ildə yaradılmışdır. Qoruğun sahəsi 107 hektardır. Burada əsasən Şərq çinarı qorunurdu. Çay boyu çinar meşəliyi 12 km məsafədə uzanır. Burada bitən ağacların yaşı 500 ilə çatırdı və Şərq çinarı "Qırmızı kitab"a daxil edilmişdir [13].

Laçın yasaqlığı Azərbaycanın Laçın rayonunun ərazisində 1961-ci ildə təşkil edilmişdir. Sahəsi 21.4 min hektardır. Yasaqlıqda dağ keçisi, cüyür, çöl donuzu, turac, kəklik mühafizə edilirdi.

Eyni zamanda, Dağlıq Qarabağda yerləşən Şuşa şəhərinin füsunkar təbiəti də turizm baxımından əlverişlidir. Azərbaycanda yeganə olaraq Şuşa rayonu ərazisində bitən Xarıbülbül Qarabağın rəmzi hesab edilir.

**Regionun sənaye potensialı:** Sovet dövründə Dağlıq Qarabağ düzən Qarabağla və Azərbaycanın başqa iqtisadi rayonları ilə sıx iqtisadi əlaqədə inkişaf etmişdir. Bütün istiqamətlərdə keçən yollar bu iki ərazini iqtisadi cəhətdən bir-birinə möhkəm bağlamışdır. Dağlıq Qarabağın ermənilər tərəfindən işğal edilməsi və digər Azərbaycan rayonlarından ayrılması regionun əhalisi və təsərrüfatı üçün çox ciddi problemlər yaratmışdır. Uzun illərdən bəri Dağlıq Qarabağın ərazisində yerləşən müəssisələrin böyük əksəriyyəti Azərbaycanın rayonlarından gətirilən yanacaq, xammal və materiallar əsasında işləyirdi, bir çoxları isə Bakının iri müəssisələrinin filialları kimi fəaliyyət göstərirdi.

1985-ci ildə Qarabağın Xankəndidəki iri İpək kombinatına daxil olan barama xammalının cəmi 8%-i Dağlıq Qarabağın özündə istehsal edilirdi. Yerdə qalan 92%-i isə Azərbaycanın başqa rayonlarından gətirilirdi.

Xankəndi vaxtilə birbaşa Azərbaycan dəmir və şosse yollarına, bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sisteminə sıx bağlanmışdı. Xankəndidən dəmiryolu vasitəsilə Bakıya qədər olan məsafə 392 km-dir. Regionun gələcək inkişafında bu, çox vacib amildir və infrastruktur layihələrinin hazırlanması zamanı sovet vaxtı mövcud olan nəqliyyat logistikasının xəritələrindən istifadə edilə bilər. Təbii ki, işğal edilmiş rayonlarda illərdən bəri fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində hal-hazırda dağıdılmış və bərbad vəziyyətdədir.

Bu məqalədə bölgənin sənaye potensialına 4 aspektdən nəzər salınır, heç şübhəsiz, digər mövcud inkişaf spektləri ilə əlaqədar gələcəkdə daha geniş tədqiqatlar aparılacaq. Beləliklə, ilkin baxışda zəngin su təchizatı, elektrik enerjisi, sənaye rekreasiya imkanları və zəngin faydalı qazıntılar azad edilən ərazilərin sənaye potensialının karkasını təşkil edir [7].

**Regionun su təchizatı imkanları:** Hal-hazırda bütün dünyada iqlim dəyişikliyi və onun nəticəsində yaranmış su qıtlığı ən aktual problemlərdən birinə çevrilmişdir. Su qıtlığı Azərbaycan üçün də önəmlidir. Sirr deyil ki, ölkənin su ehtiyatları obyektiv coğrafi səbəblərdən daha kasaddır və əsas mənbələr qonşu ölkələrdədir. Ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli sərəncamı vasitəsilə yaradılmış Dövlət Komissiyası fəaliyyət göstərir [13]

Bu kontekstdə azad edilən ərazilərin zəngin su ehtiyatları ölkədə sənayenin və kənd təsərrüfatının inkişafı üçün xüsusi əhəmiyyət kəsb edir. Sərsəng su anbarı 1976-cı ildə Tərtərçayın üzərində, Ağdərə (hazırda Tərtər) rayonu ərazisində inşa edilmişdir. Onun ümumi su tutumu 560 milyon m³, bəndinin hündürlüyü isə 125 m-dir. Sərsəng su anbarı respublikada bəndinin hündürlüyünə əsasən ən hündür bəndli su anbarlarından biridir.

Sərsəng su anbarının daxil olduğu Ağdərə rayonunun yaxın gələcəkdə tam azad edilməsi respublikanın 6 rayonunda (Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi) 100 min hektara yaxın torpaq sahəsini suvarma suyu ilə təmin etməyə imkan yaradacaq. Qeyd etmək lazımdır ki, Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Sərsəng su anbarından başqa ümumi tutumu 80 mln. m³ olan başqa su anbarları da qalıb. Onların da ölkə təsərrüfatına qatılması əlavə 15 min hektar torpaq sahəsinin suvarılmasına şərait yarada bilər [14.

Bundan əlavə, Cəbrayıl və Zəngilan ərazisində yerləşən Xudafərin su anbarının azad edilməsi və dövriyyəyə 75 min hektar yeni ərazinin suvarılması və mövcud ərazilərin suvarılmasının yaxşılaşdırılması deməkdir. Bu su anbarının həcmi bəzi hesablamalara əsasən 1.6 mlrd. kub metrdir. Eləcə də regionda 11 yeraltı şirin su mənbəyinin yerləşdiyi ehtimal edilir. Başqa ölçü vasitəsilə bu 1 milyon 968 min m³/gün yeraltı şirin su təchizatı deməkdir [13].

**Regionun elektrik enerjisi resursları:** Regionun əsas elektrik enerjisi istehsalı su yığımı və təchizatı areallarına təsadüf edir. Söhbət, təbii ki, Sərsəng və Xudafərin SES-lərindən gedir.

Sərsəng SES və yaxud başqa adı ilə Tərtər SES 1976-cı ildə Tərtər çayının üzərində, keçmiş Ağdərə (indiki Tərtər) rayonu ərazisində inşa edilmiş su elektrik stansiyasıdır. Hər birinin gücü 25 MVt olan 2 ədəd turbindən ibarət su elektrik stansiyası hazırda qeyri-qənaətbəxş vəziyyətdədir. Stansiyada təmir-bərpa işləri aparıldıqdan sonra istehsal gücü daha çox artırıla və ətraf rayonların elektrik enerjisinə tələbatının ödənilməsinə yönəldilə bilər.

Xudafərin SES isə Araz çayının üzərində İranla Azərbaycan arasında imzalanmış razılaşmaya müvafiq olaraq inşa edilir. Belə ki, 2016-cı ilin fevralında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır. Araz çayı üzərində elektrik stansiyalarının ümumi gücü 280 meqavata

çata bilər. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər.

Aydındır ki, Sərsəng və Xudafərin SES-ləri ətraf rayonların enerji təminatının yaxşılaşdırılmasında, azad olunmuş ərazilərin bərpa edilməsində aktiv istifadə ediləcək. Ümumilikdə isə bu elektrik stansiyalarının ölkənin enerji sisteminə qatılması güclərin artırılması ilə yanaşı, mənbələrin coğrafi diversifikasiyası, yəni Abşeron, Şirvan və Mingəçevir üzərindən yüklərin azaldılması, eləcə də alternativ (bərpa olunan) enerji istehsalının ümumi istehsalda payının artırılması deməkdir [14].

**Regionun sənaye rekreasiya imkanları:** Ehtimal edilir ki, Azərbaycanın mineral sularının ümumi geoloji ehtiyatlarının 39.6%-i işğaldan azad edilmiş rayonların payına düşür. Bu ərazilərdə böyük müalicə əhəmiyyəti olan 120-dək müxtəlif tərkibli mineral su yataqları vardır. Başqa ölçü vasitəsilə bu 7805 m³/gün mineral su təchizatı deməkdir. Bunların içərisində Kəlbəcər rayonunda Yuxarı və Aşağı İstisu, Bağırsaq, Keşdək, Laçın rayonunda İlıq su, Minkənd, Şuşa rayonunda Turşsu, Sırlan və başqa mineral sular diqqəti xüsusilə cəlb edir [7].

Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına əsasən fərqlənir. İstisu bulağının üstündə keçən əsrin 80-ci illərində iri kurort və mineral su doldurma zavodu tikilmişdir. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi.

Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşir. Turşsu vasitəsilə müxtəlif daxili xəstəliklər müalicə edilir, kəmər vasitəsilə Şuşa şəhərinə su verilirdi.

Beləliklə, regionun mineral su ehtiyatı içki sənayesində yeni emal güclərinin, içki sənayesi - turizm - rekreasiya üçbucağında müasir habın təşkil edilməsinə şərait yarada bilər [13].

**Regionun faydalı qazıntı-xammal potensialı:** İşğal olunmuş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlükdaşı, 10 mişardaşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s.) yataqları yerləşir [7].

Yuxarıda sadalanan müxtəlif növ faydalı qazıntılar Qızılbulaq, Mehmana, Dəmirli, Canyataq-gülyataq, Ağdərə, Şorbulaq, Şuşa, Şirlan, Turşsu, Xocalı, Zərinbax, Ağçay, Xankəndi, Ediş, Xocavənd, Söyüdlü, Ağduz dağ, Tutxun, Ağ yataq, Levçay, Kilsəli, Keşdək, Keçəldağ, Çəlli, Yuxarı İstisu, Aşağı İstusu, Mozçay, Qoturlu, Çilkəz, Narzanlı, Əhmədli, Hoçaz, Laçın, Novruzlu, Yuxarı Əkərəçay, Quşçu, Minkənd, Hacılı, Xanlıq, Qubadlı, Vejnəli, Bartaz, Oxçuçay, Zəngilan, Şərifan, Tuluz, Qaracalı, Soltanlı, Çaxmax çay, Göyərçin-Veysəlli, Minbaşılı, Ağtəpə, Cəfərabad, Şahverdilər, Çaxmaxqaya, Dövlətyarlı, Diləgərdi, Kürdmahmudlu, Quruçay, Şahbulaq, Gülablı, Çobandağ, Boyəhmədli, Şahbulaq, Ağdam, Qarqarçay, Xaçınçay və s. yataqlarda aşkar edilmişdir [14].

Sözügedən yataqlarda sənaye ehtiyatları təsdiq olunmuş 132.6 ton qızıl, 37.3 min ton qurğuşun, 189 milyon m³ mişardaşı, 1 milyon 526 min ton gəc, 18 milyon 432 min m³ üzlük daşı, 23 milyon 243 min m³ gil, 57 milyon 965 min ton tikinti daşı, 96 milyon 987 min ton qum-çınqıl, 1898.4 ton civə, 4 milyon 473 min

m³ perlit, 2 milyon 144 min m³ pemza, 129 milyon 833 min m³ soda istehsalı üçün əhəng daşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar müəyyən edilmişdir.

Regionda nadir və qiymətli faydalı qazıntı yataqları yayılmışdır. Əhəmiyyətli mis-sink filizlərinin ehtiyatları Kiçik Qafqazın şərqində yerləşən Mehmana yataqlarında cəmlənmişdir. Burada istismara hazır olan filiz ehtiyatları vaxtilə öyrənilmişdir. Sənaye əhəmiyyəti olan civə ehtiyatları Kəlbəcər rayonundakı Şorbulaq və Ağyataqda yerləşir [13].

İşğaldan azad edilmiş ərazilər ölkəmizin sənaye və tikinti sektoru üçün böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəng ehtiyatı 140 milyon ton və gil ehtiyatı 20 milyon ton), Şahbulaq (25 milyon ton gil), Boyəhmədli (45 milyon ton gil) və başqa yataqlardadır. Eləcə də, iri tikinti daş yataqları Xankəndidə, mərmər isə Harovda yerləşir.

**Cədvəl 4. İşğaldan azad edilmiş rayonlar üzrə faydalı qazıntıların növləri [6]**

| Rayonun adı | Faydalı qazıntı növü |
|---|---|
| **Ağdərə** | Qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc |
| **Şuşa** | Üzlük daşı, gil, tikinti daşı |
| **Xocalı** | Gil, üzlük daşı, qum-çınqıl |
| **Xocavənd** | Üzlük daşı, tikinti daşı |
| **Kəlbəcər** | Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit) |
| **Laçın** | Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad |
| **Qubadlı** | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| **Zəngilan** | Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl |
| **Cəbrayıl** | Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yaşəm, xalsədan) |
| **Füzuli** | Mişar daşı, gil, qum-çınqıl |
| **Ağdam** | Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl |

Təbii ki, yuxarıda qeyd edilən faydalı qazıntılarla əlaqədar məlumatlar müəyyən mənada nisbi xarakter daşıyır. Bunun üçün növbəti mərhələdə bütün yataqların dəyərləndirilməsi aparılmalı, sovet dövrünə aid rəqəmlər dəqiqləşdirilməlidir. Nəzərə alınmalıdır ki, keçən 30 il ərzində ərazilərdəki mövcud təbii sərvətlərimiz ermənilər tərəfindən talan edilmişdir. Eləcə də yeni dəyərləndirmə üsulları meydana gəlmişdir. Bu səbəbdən regionun faydalı qazıntılarını əhatə edən yeni geoloji xəritəsi hazırlanmalıdır [14.

İlkin baxışda faydalı qazıntıların gələcək istismarı 3 blokda aparıla bilər: əlvan metallar və onların metallurgiyası, tikinti materialları və nadir metallar. Əlvan metallar və tikinti materialları ənənəvi iqtisadiyyat üçün xas olan sahələrdir və mövcud ehtiyatlar bu sahələrdə yeni güclərin yaranmasına imkan verəcək. İşlərin görülməsi zamanı sovet vaxtında bu sahələrdə aparılmış tədqiqatlar və ilkin infrastruktura (mövcudluğundan asılı olaraq) əsaslanmaq olar. Əlavə olaraq, yüksək texnologiyalarda geniş istifadə edilən nadir metalların regionda mövcudluğu ilə əlaqədar araşdırmalar və geoloji işlər aparıla bilər.

## Nəticə

Azərbaycan Respublikası Prezidentinin birbaşa nəzarəti altında hal-hazırda işğaldan azad edilmiş ərazilərdə geniş bərpa-quruculuq işləri aparılır. Böyük Qayıdışa bütün sahələrdə hazırlıq işləri görülür. İşğaldan azad edilmiş ərazilərdə aparılan ilkin inventarlaşmanın bütün məlumatları Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə daxil edilir. Belə ki, 14618 daşınmaz əmlakın (11685 ədəd tikili və 2933 ədəd infrastruktur obyekti) çöl inventarlaşdırma işləri artıq tamamlanmışdır.

Hazırda 20 dövlət qurumunun və təşkilatının Qarabağ Rəqəmsal Geoinformasiya Sisteminə qoşulması təmin edilmiş, onlara sistemdə işləməklə əlaqədar təlimlər keçirilmiş, artıq 15 qurum tərəfindən məlumatların sistemə daxil edilməsinə başlanılmışdır.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin reallaşdırılması ilə əlaqədar 791 müraciət daxil olmuşdur. İnvestisiya layihələrinin prioritetliyi təhlil edilir, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

Kənd Təsərrüfatı Nazirliyindən verilən məlumata görə, işğaldan azad edilmiş ərazilərdə 14347 hektar sahədə şumlama işləri və əsasən taxıl əkini aparılmışdır. Bundan başqa, Laçın yaylaqlarına qaldırılmış 16 arıçı sahibkara məxsus 531 arı ailəsi, Kəlbəcər rayonu üzrə 53 arıçıya məxsus 2937 arı ailəsi də qışlaqlara köçürülmüşdür. Eləcə də cari ildə Füzuli rayonunun 288.8 hektar ərazisində şəkər çuğunduru əkilib və həmin torpaqların 78,8 hektarı işğaldan azad olunmuş əraziləri əhatə edir. Füzuli rayonunun işğaldan azad olunmuş Seyidmahmudlu kəndi ərazisindəki minalardan təmizlənmiş torpaqlarda şəkər çuğunduru ilk dəfədir ki becərilir və yüksək məhsuldarlığa nail olunmuşdur. Belə ki, şəkərlilik faizi 15-16 faiz göstərici ilə hər hektardan 55-60 ton məhsul yığılmışdır və bu günə kimi 1800 tona yaxın məhsul tədarük edilmişdir.

Dövlət Turizm Agentliyinin məlumatlarına əsasən, işğaldan azad olunmuş ərazilərdə mehmanxana təsərrüfatı və turizm fəaliyyətlərinin təşkili sahəsində 11 investisiya layihəsinin ilkin dəyərləndirilməsi aparılmışdır.

Beləliklə, bu məqalədə qaldırılan işğaldan azad edilmiş ərazilərdə iqtisadi fəaliyyətin düzgün təşkili, xammal və resurs potensialından səmərəli istifadə regionun dayanıqlı inkişafına, öz dogma yurdlarına qayıdacaq keçmiş məcburi köçkünlərin sosial-iqtisadi imkanlarının yaxşılaşdırılmasına öz töhfəsini verəcəkdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Azrbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /29 oktyabr 2020/ - https://president.az/az/articles/view/44886

2. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. /24 noyabr 2020/ - https://president.az/az/articles/view/47738

3. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /07 iyul 2021/ - https://president.az/az/articles/view/52389

4. Azərbaycan Dövlət Statistika Komitəsi, Azərbaycanın regionları, Statistik məcmuə, Bakı, 2021.

5. Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitinin səmərəli yerləşdirilməsi məqsədilə iqtisadi rayonlar üzrə prioritet istiqamətlər. - http://edf.gov.az/az/content/105#

6. Cəfərov A. Rayonlarımızın işğaldan azad olunması Azərbaycan iqtisadiyyatına hansı faydaları verəcək? /12 iyul 2021/ - https://fraza.az/az/news/read/53

7. Eyyubova G. İqtisadi rayonların sayının artması Vətən müharibəsində qazandığımız Zəfərdən sonra formalaşmış yeni reallıqlara tam uyğundur. /09 iyul 2021/ - http://ikisahil.com/post/233156-iqtisadi-rayonlarin-sayinin-artmasi-veten-muharibesinde-qazandigimiz-zeferden-sonra-formalashmish-yeni-realliqlara-tam-uygundur

8. İlham Əliyevin sədrliyi ilə 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirə keçirilib. /06 yanvar 20201/ - https://president.az/az/articles/view/49933

9. İqtisadi rayonlaşdırma. - https://www.azerbaijans.com/content_464_az.html

10. Nəcəfxanlı Ə. İqtisadi rayonlar üzrə yeni bölgü faydalı iş əmsalını daha çox artıracaq. - https://xalqqazeti.com/mobile/az/news/80407.

11. “Qarabağ Dirçəliş Fondu” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. /04 yanvar 2021/ - https://president.az/az/articles/view/49876

12. Qurbanlı T. Yeni iqtisadi rayonlar: siyasi və milli təhlükəsizlik prinsipləri. - https://teleqraf.com/news/siyaset/294486.html

13. Sadıqlı S.F. Yeni iqtisadi rayonlar ölkəmizin gələcək inkişafı üçün yeni imkanlar açır. - https://azerbaijan-news.az/posts/detail/yeni-iqtisadi-rayonlar-olkemizin-gelecek-inkisafı-ucun-yeni-imkanlar-acir-1625780115.

14. Səmədzadə Z. Dağlıq Qarabağ: naməlum həqiqətlər. Bakı: Vətən, 1995.

**Sohrab Isayev, Murad Mirzayev**

## DIRECTIONS AND TYPES OF ORGANIZATION OF ECONOMIC ACTIVITY IN TERRITORIES LIBERATED FROM OCCUPATION


### Abstract

At present, the issues of reconstruction and construction in liberated Karabakh, economic potential of the territories, material resources and their efficient use, attraction of investments to Karabakh, development of entrepreneurship at various levels, etc. is of great importance.

It is clear that the historical and cultural value of the liberated territories for the Azerbaijani people is much higher and more important than any economic benefits. At the same time, the new economic power, which will be created on the basis of the integration of this territory into the economy of the whole country, will undoubtedly double the capital expenditures of the Azerbaijani state for reconstruction and construction.

The liberated territories are rich in various types of industrial and construction resources. At the same time, this region has rich water resources, which are of exceptional importance for the industry and agriculture of our country.

It can be said with confidence that the business environment that will be created in the liberated territories, the formation of micro, small and medium-sized enterprises, will give a key impetus to the dynamic development of the non-oil sector as a strategic direction.

As a result, along with an increase in the volume and range of import-substituting products due to local production, the production of export-oriented products will also increase. The material and economic basis of this confidence is the natural wealth of the liberated territories, and the socio-economic basis is people returning to their native lands.


**Keywords:** Karabakh, liberated territories, economic activity directions, economic potential, entrepreneurship, infrastructure, resources, restoration and construction, agriculture

**Сохраб Исаев, Мурад Мирзаев**

## НАПРАВЛЕНИЕ И ВИДЫ ОРГАНИЗАЦИИ ХОЗЯЙСТВЕННОЙ ДЕЯТЕЛЬНОСТИ НА ОСВОБОЖДЕННЫХ ТЕРРИТОРИЯХ КАРАБАХА


### Резюме

В настоящее время вопросы восстановление и строительство в освобожденном Карабахе, экономический потенциал территорий, материальные ресурсы и их эффективное использование, привлечение инвестиций в Карабах, развитие предпринимательства на различных уровнях и т.д. имеет большое значение.

Понятно, что историческая и культурная ценность освобожденных территорий для азербайджанского народа намного выше и важнее любых экономи-

ческих благ. Вместе с тем, новая экономическая мошь, которая будет создана на основе интеграции этой территории в экономику всей страны, несомненно, удвоит капитальные затраты Азербайджанского государства на реконструкцию и строительство.

Освобоженные территории богаты различными видами ресурсов промышленного и строительного значения. В то же время этот регион обладает богатыми водными ресурсами, имеющими исключительное значение для промышленности и сельского хозяйства нашей страны.

Можно с уверенностью сказать, что бизнес-среда, которая будет создана на освобожденных территориях, формирование микро-, малых и средних предприятий, придаст ключевой импульс динамичному развитию ненефтяного сектора как стратегического направления.

В результате, наряду с увеличением объемов и ассортимента импортозамещающей продукции за счет местного производства, будет увеличиваться и производство экспортоориентированной продукции. Материально-экономическую базу этой уверенности составляют природные богатства освобожденных территорий, а социально-экономическую базу - люди, возвращающиеся на родные земли.

**Ключевые слова:** Карабах, освобожденные территории, направления экономической деятельности, экономический потенциал, предпринимательство, инфраструктура, ресурсы, восстановление и строительство, сельское хозяйство.